QƏRBİ KASPİ UNİVERSİTETİ

# KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

Qərbi Kaspi Universitetinin Elmi Şurasının 12 10 2022-ci il tarixli iclasının qərarə ilə (protokolu № 02) təsdiq edilmişdir

Tarix 13.10.2022

İmza

BAKI - 2022

Scanned with CamScanner

Mündəricat


1. ÜMUMİ MÜDDƏALAR ........ 3
2. SİYASƏTİN MƏQSƏDİ ........ 3
3. ƏHATƏ DAİRƏSİ VƏ PRİNSİPLƏR ........ 3
5. SİYASƏT TƏLİMATLARI ........ 4
6. KEYFİYYƏT TƏMİNATI SAHƏSİNDƏ STANDARTLAR ........ 5

6.1. Proqramların tərtib və təsdiq edilməsi ........ 5

6.2. Tələbəyönümlü təlim, tədris və qiymətləndirmə ........ 5

6.3. Tələbələrin qəbulu, təhsil alması, tanınma və attestasiyası ........ 7

6.4. Professor-Müəllim heyəti ........ 8

6.5. Tədris resursları və tələbə dəstəyi ........ 8

6.6. İnformasiyanın idarə edilməsi ........ 9

6.7. İctimai məlumatlılıq ........ 9

6.8. Proqramların davamlı monitorinqi və vaxtaşırı nəzərdən keçirilməsi ........ 9

6.9. Dövrü olaraq xarici keyfiyyət təminatı. ........ 10

7. İMZA VƏ TƏSDİQ ........ 10




Scanned with CamScanner

## 1. ÜMUMİ MÜDDƏALAR

Qərbi Kaspi Universitetinin (bundan sonra Universitet) Keyfiyyət Təminatı Siyasəti Azərbaycan dövlətinin təhsil siyasətini və cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla beynəlxalq rəqabətliliyə dayanıqlı təhsilin təşkili və keyfiyyət səviyyəsinin artırılması yolu ilə müasir dövrün tələblərinə cavab verən bacarıqlı, kreativ və innovativ düşüncəyə malik hərtərəfli şəxsiyyətlərin və rəqabətqabiliyyətli peşəkar kadrların hazırlanmasını əhatə edir.

Bu siyasət təhsilin keyfiyyətinin təmin olunmasına və fasiləsiz inkişafına yönəlməklə Universitetin Strateji İnkişaf Planının hədəflərini dəstəkləyir.

Mövcud siyasətin hazırlanmasında "Təhsil haqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar"a (ESG), və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərinə istinad edilmişdir.

Bu siyasət ESG standartlarında, müvafiq normativ-hüquqi sənədlərdə, Universitetin Strateji inkişaf Planında və Universitetin Akademik siyasətində dəyişikliklərə uyğun olaraq nəzərdən keçirilə və dəyişdirilə bilər. Universitet rəhbərliyi siyasətin effektiv həyata keçirilməsini təmin edir.

## 2. SİYASƏTİN MƏQSƏDİ

1. Tədrisin keyfiyyətinin artırılması vasitəsilə ölkə və beynəlxalq arenada yüksək rəqabətqabiliyyətli təhsilin (dərəcələrin) təmin olunmasını;
2. Universitetin elmi-tədqiqat potensialının daha da genişləndirilməsini;
3. Sağlam iş mühitini təmin etməklə, beynəlxalq əməkdaşlıqdan faydalanaraq həm akademik, həm də inzibati heyətin peşəkar inkişafının dəstəklənməsini;
4. Təlim və tədris prosesində qabaqcıl, innovativ metodologiyaların tətbiqini;
5. Tədris prosesində tələbəyönümlü interaktiv tədris metodları və texniki vasitələrdən istifadə etməklə, XXI-ci əsr bacarıqlarına malik mütəxəssis olmağa təşviq edilməsini;
6. İnfrastrukturun gücləndirilməsi və dayanıqlılığın təmin edilməsini;
7. Daxili və xarici maraqlı tərəflərin ehtiyac və gözləntilərinin qarşılamasını təmin etməkdir.

## 3. ƏHATƏ DAİRƏSİ VƏ PRİNSİPLƏR

Keyfiyyətin Təminatı Siyasəti davamlı təkmilləşdirmə dövrü çərçivəsində QKU-nin bütün fəaliyyət və əməliyyatlarını əhatə edir. Başqa cür nəzərdə tutulmayıbsa, bu siyasət daxili maraqlı tərəflər qismində universitet daxilindəki bütün aktorlara, o cümlədən tələbələrə, akademik, inzibati



Scanned with CamScanner

və tədris köməkçi heyətə, habelə xarici maraqlı tərəflər qismində işəgötürənlərə və qurumun digər xarici tərəfdaşlarına şamil edilir.

***Universitet Keyfiyyət təminatında aşağıdakı prinsiplərə əsaslanır;***

1) **Şəffaflıq**: Universitet keyfiyyət təminatı siyasətləri, prosesləri və qiymətləndirmə meyarları ilə bağlı şəffaflığı təmin edir,
2) **Maraqlı tərəflərin iştirakı**: bütün maraqlı tərəflərlə effektiv kommunikasiyanın təşkili, onların daxili keyfiyyət təminatı prosesinə cəlb edilməsi, və həyata keçirilən tədbirlər haqqında daxili və xarici maraqlı tərəflərin məlumatlandırılmasını təmin edir;
3) **Davamlı təkmilləşdirmə**: Universitet daxili keyfiyyət təminatı sisteminin davamlı təkmilləşdirilməsini və keyfiyyət mədəniyyətinin inkişafının dəstəklənməsini təmin edir;

Nəzərdə tutulan Keyfiyyət Təminatı Siyasəti prioritetlərinin bütün əməkdaşlar tərəfindən səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə Qərbi Kaspi Universiteti uyğun şərait yaratmışdır. Universitetin professor və müəllim heyəti, inzibati heyət və təhsil alan tələbələr keyfiyyətin təminatının tətbiqi və təkmilləşdirilməsində yaxından iştirak edirlər. Belə ki, Universitetin hər bir əməkdaşı icra etdiyi fəaliyyətə, tələbə isə aldığı təhsilin keyfiyyətinə görə məsuliyyət daşıyır

## 5. SİYASƏT TƏLİMATLARI

Siyasətin həyata keçirilməsi aşağıdakılar vasitəsilə təmin edilir:

- Universitetin müvafiq təşkilati strukturunun yaradılması, struktur bölmələrinin vəzifə funksiyalarının və keyfiyyətin təminatına məsul olan vəzifəli şəxslərin hüquq və vəzifələrinin müəyyən edilməsi vasitəsilə;
- daxili keyfiyyət təminatı prosesinə maraqlı tərəflərin (tələbələr, sosial tərəfdaşlar, işəgötürənlər, məzunlar və digər şəxslər) cəlb edilməsi;
- keyfiyyətə zəmanət vermək üçün zəruri resursların yaradılmas, informasiya sistemlərinin inkişaf etdirilməsi;
- təhsil proqramlarınn sistemli monitorinqinin və qiymətləndirilməsinin aparılması;
- tələbə mərkəzli öyrənmə, tədris və qiymətləndirmə, tələbələrə qarşı imkan bərabərliyinin və ədalətin təmin edilməsi;
- keyfiyyətin təmin edilməsi və təkmilləşdirilməsi üzrə fəaliyyətə bütün işçilərin cəlb edilməsi, heyətin hesabatlılığının təmin edilməsi, tapşırılan iş sahəsinə görə məsuliyyətin artırılması;
- təhsil və elm sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, tələbələrin və professor-müəllim heyətinin mobilliyinin artırılması.



Scanned with CamScanner

Universitetin strateji idarəetməsinin bir hissəsini təşkil edən bu Siyasət ictimaiyyətə açıqdır.

Universitet təhsilin daxili keyfiyyət təminatı, göstərilən təhsil xidmətləri və onların davamlı təkmilləşdirilməsi üçün tam məsuliyyət daşıyır. Keyfiyyət mədəniyyətinin universitetin bütün akademik heyət, tələbələr, inzibati heyət arasında formalaşdırılmasına təminat verir. Daxili keyfiyyət təminatı prosesləri və standartları bu siyasət vasitəsilə həyata keçirilir və universitet bütün bölmələrinin bu işdə iştirakını dəstəkləyir.

Daxili keyfiyyət təminatı sistemini həyata keçirmək üçün Universitet Keyfiyyətə Nəzarət Komissiyaları yaradır.

## 6. KEYFİYYƏT TƏMİNATI SAHƏSİNDƏ STANDARTLAR

### 6.1. Proqramların tərtib və təsdiq edilməsi

Universitet təhsil proqramlarının hazırlanması və təsdiq edilməsi prosedurlarını müəyyən edir. Təhsil proqramları Milli Kvalifikasiya Çərçivəsi, Avropa Kvalifikasiyalar Çərçivəsinin deskriptorları əsasında formalaşmalı, o cümlədən gözlənilən təlim nəticələri müəyyən edilmiş məqsədlərə uyğun gəlməlidir.

- Təhsil proqramı təhsilin əsas xüsusiyyətlərinin vahid toplusu kimi təlimin məqsədlərini, nəticələrini və məzmununu, təhsil prosesinin təşkilini, onların həyata keçirilməsi yollarını və üsullarını, təlim nəticələrinin qiymətləndirilməsi meyarlarını özündə əks etdirir.
- Təhsil proqramları əmək bazarının tələblərinə uyğun olmaqla hazırlanmalı və lazım olan təlim nəticələri baxımından təkmilləşdirilməlidir;
- Təhsil proqramlarının tərtib və təsdiqi ixtisas üzrə Proqram Komissiyaları (ekspert qrupu) tərəfindən aparılır. Təhsil proqramları tələbə və digər maraqlı tərəflərin iştirakı ilə onların ehtiyac və tələbləri nəzərə alınmaqla hazırlanır. Proqram komissiyasının tərkibi ixtisas rəhbəri, maraqlı tərəflərin nümayəndələri və tələbələrdən ibarət olmalıdır.
- Proqramlar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Dövlət Standartlarına və Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlara və təlimatlara (1.2. Proqramların tərtibi və təsdiq olunması) cavab verməlidir;

### 6.2. Tələbəyönümlü təlim, tədris və qiymətləndirmə

Tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirmə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin 6.3.7.–ci (*Təhsil proqramlarının (kurikulumların) hazırlanması, qiymətləndirilməsi və təsdiq olunması proseslərinin təlim (öyrənmə) nəticələrinə əsaslanması*) və 6.3.11. bəndlərinə əsasən (*Ali təhsil*



Scanned with CamScanner

*üzrə kvalifikasiyaların Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təmin Olunması üzrə Standart və Tövsiyələrə (ESG) uyğun olaraq verilməsi*) və ESG-nin 1.3. standartına uyğun olaraq hazırlanmışdır.

Tələbələrə yönəldilmiş təhsil və tədris tələbələrin motivasiyanın artırılması, özünü təhlil etməsi və təhsil prosesinə cəlb olunmasında vacib rol oynayır. Bu səbəbdən, təhsil proqramlarının tərtibi və tədrisi, eləcə də nəticələrin qiymətləndirilməsi diqqətlə nəzərdən keçirilməlidir.

***Tələbəyönümlü təhsil və tədrisin həyata keçirilməsi aşağıdakıları nəzərdə tutur:***

- Təhsildə yeni tədris metodlarının istifadəsinə imkan yaratmaqla tələbələrin ehtiyaclarına xidmət etmək;
- Müvafiq hallarda tədrisin müxtəlif interaktiv üsullar ilə həyata keçirilməsini nəzərdən keçirmək və tətbiq etmək;
- İdman və mədəniyyət tədbirlərinin, müxtəlif klubların təşkili və könüllü iştirakçılığın təmini;
- Tələbələrin yerli və beynəlxalq ictimai birliklərlə əlaqəsinin artırılması;
- Tədris formalarını və pedaqoji metodları daim qiymətləndirmək və uyğunlaşdırmaq;
- Tələbə və müəllim arasında münasibətlərinin qarşılıqlı hörmət əsasında qurulmasını təşviq etmək;
- Tələbələrin şikayətlərinə baxılması üçün müvafiq prosedurları yaratmaq;
- Təcrübələrin sistemləşdirilməsi və əmək bazarı ilə əlaqələndirilməsi.

***Tələbələrin irəliləyişi və gələcək karyeraları üçün qiymətləndirmə önəmli olduğundan, qiymətləndirmə üzrə keyfiyyət təminatı prosesləri aşağıdakıları nəzərə almalıdır:***

- bilikləri qiymətləndirən şəxslər mövcud imtahan və yoxlamaların aparılması metodları ilə tanış olmalıdırlar və bu sahədə bilik və bacarıqlarının təkmilləşdirilməsində onlara yardım göstərilməlidir;
- qiymətləndirmə meyarları və metodları, habelə qiymət verilməsi meyarları qabaqcadan nəşr olunmalıdır;
- qiymətləndirmə prosesi tələbələrdən gözlənilən təlim nəticələrini nümayiş etdirməyə imkan verir;
- ehtiyac olduqda, tələbələrə təhsil prosesi üzrə tövsiyələr verilir;
- mümkün olan hallarda qiymətləndirmə bir neçə şəxs tərəfindən aparılır;
- qiymətləndirmə qaydalarında yüngülləşdirici hallar nəzərdə tutulur;
- qiymətləndirmə davamlı və obyektiv olmalı, ayrı-seçkiliyə yol verilməməli və qabaqcadan elan olunmuş prosedurlara uyğun həyata keçirilməlidir;



Scanned with CamScanner

- qiymətləndirmə ilə bağlı tələbələrin şikayət etməsi üçün formal prosedurlar mövcud olmalıdır.

6.3. Tələbələrin qəbulu, təhsil alması, tanınma və attestasiyası

- Universitetə tələbə qəbulu Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən universitetin təqdim etdiyi qəbul planına əsasən həyata keçirilir. QKU qəbul nəticələrini, ali təhsilin ixtisas kvalifikasiyalarını və əvvəlki təhsili tanıyır. QKU təhsilin bütün səviyyələri və formaları üzrə (distant təhsil istisna olmaqla) təhsil xidmətləri göstərir. Universitetdə ixtisas və ixtisaslaşmalara təhsilalanların say həddi üzrə sifarişlər verilərkən cəmiyyətin, əmək bazarının, təhsil proqram və standartlarında qeyd olunan tələblər nəzərə alınır.
- QKU-ya ali təhsil səviyyələri üzrə əcnəbi tələblərin qəbulu vahid elektron platforma üzərindən ödənişli əsaslarla aparılır. Əcnəbi tələbələrin vaxtında təhsil yerinə gəlişinin təmin olunması məqsədilə ali təhsil müəssisələri tərəfindən əcnəbi vətəndaşların hazırlıq kursları istisna olmaqla, digər təhsil səviyyələrinə qəbulu üçün son tarix 30 sentyabr müəyyən edilib.
- QKU-nun təhsilalanlarının bir universitetdən digərinə və ya bir ixtisasdan digərinə köçürülmə, tələbələr sırasına bərpa, və tələbələr sırasından xaric olunma hüquqları var.
- Tələbələrin bütün fəaliyyət və nailiyyətləri Universitet tərəfindən müəyyən edilmiş formada qeydə alınır və saxlanılır.
- Universitet təhsilalanların attestasiyasını mövcud qaydalar əsasında həyata keçirir. Təhsillərini başa vuran təhsilalanlara diplom və diploma əlavənin verilməsini təmin edir.
- Tələbələrin dövlət attestasiyası istiqamət (ixtisas) üzrə (yazılı qaydada) yekun dövlət imtahanı və buraxılış işin müdafiəsi formasında təşkil olunur.
- Ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramlarının təhsilalanlar tərəfindən mənimsənilmə səviyyəsi və keyfiyyəti müvafiq qaydalar əsasında cari, aralıq və dövlət attestasiyası zamanı müəyyənləşdirilir.

***Müvafiq tanınma prosedurları aşağıdakılara əsaslanır:***

a. Universitet ali təhsilin ixtisaslarının, təhsil müddətlərinin və əvvəlki təhsilin, tanınması prosedurlarınının Lissabon Tanınma Konvensiyasına uyğun olmasını təmin edir,

b. Boloniya prosesinin prinsiplərinə uyğun olaraq digər təhsil müəssisələrində əldə edilmiş təhsil nailiyyətlərinin tanınmasına yönəlmiş akademik mobillik proqramlarını və prosedurlarını həyata keçirir.



Scanned with CamScanner

## 6.4. Professor-Müəllim heyəti

Universitetin vacib resurslarından biri də yüksək ixtisaslı professor-müəllim heyətinin olmasıdır. Universitet öz müəllimlərinin səriştəliliyinə məsuliyyət daşıyır. Akademik kadrların işə qəbulu və inkişafı üçün ədalətli və şəffaf proseslərin tətbiqinə təminat verir

**Belə bir mühit:**

- ✓ Müəllim heyətinin peşəkar inkişafı üçün imkanlar təklif edir və təşviq edir.
- ✓ Təhsil və tədqiqat arasında əlaqəni gücləndirmək üçün elmi fəaliyyəti təşviq edir.
- ✓ Tədris metodlarında innovasiyaları və yeni texnologiyalardan istifadəni təşviq edir.

## 6.5. Tədris resursları və tələbə dəstəyi

Yüksək keyfiyyətli və səmərəli tədris prosesini təmin etmək üçün Universitet tələbələri aşağıdakı təhsil resursları ilə təmin edir:

- ✓ tədris və metodiki ədəbiyyat, o cümlədən elektron formatda;
- ✓ respublika və digər elmi kitabxanaların resursları;
- ✓ auditoriyalar, ixtisaslaşdırılmış otaqlar, laboratoriyalar, idman və akt zalları;
- ✓ laboratoriya avadanlıqları, kompüter avadanlıqları və proqram təminatı;
- ✓ fənlərin işçi kurikulumları (sillabusları), rəqəmsal təhsil resursları.

***Tələbələrin təhsil və digər resurslarla təmin edilməsi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:***

- ✓ Universitetin resurs təminatı bəyan edilmiş missiyaya, məqsəd və vəzifələrə uyğundur və tələbələr və professor-müəllim heyəti üçün əlçatandır.
- ✓ Universitetin maliyyə strategiyası universitetin strateji inkişaf planına uyğundur və onun fəaliyyətini maliyyə resursları ilə təmin edir;

Universitet tələbələrə yeməkxanalara, bufetlərə və tibb kabinetlərinə giriş imkanı verir, insan resurslarına - mentorlara (kuratorlar, məsləhətçilər, repetitorlar), professor-müəllim heyətinə, idarə heyətinə, Tələbə Məlumat Mərkəzinə çıxışı təmin edir:

Xüsusi qayğıya ehtiyacı olan tələbələrin maraqlarını dəstəkləmək və təşviq etmək məqsədilə Universitet inklüziv təhsili dəstəkləyir. Universitetdə inklüziv təhsil mümkün maneələri aşkar edib aradan qaldırmaqla, bütün tələbələrin təhsil prosesinə əlçatanlıq və cəlb olunma səviyyəsinin artırılmasına yönəlib.

Universitet pedaqogika və psixologiya, kafedrasının bazası əsasında tələbələrə psixoloji dəstək göstərilməsini dəstəkləyir.



Scanned with CamScanner

### 6.6. İnformasiyanın idarə edilməsi

Universitet təhsil proqramlarının və digər fəaliyyətlərin səmərəli idarə edilməsi məqsədilə akademik fəaliyyətə aid məlumatların toplanması, təhlili və istifadəsi prosedurlarını müəyyən edir. Universitet məlumatın ölçülə bilən, etibarlı, dəqiq, vaxtında və tam olmasını təmin edir.

Təhsilin keyfiyyətinin təmin edilməsi üzrə daxili sistemi saxlamaq və inkişaf etdirmək məqsədilə aşağıdakı məlumatların toplanması zəruridir:

- Əsas performans göstəriciləri (KPI).
- Tələbə kontingentinin profili.
- Tələbələrin irəliləməsi, müvəffəqiyyəti və universiteti tərk etmə nisbətləri.
- Tələbələrin təhsil aldıqları proqramlardan məmnunluğu.
- Təlim resursları və tələbə dəstəyinin mövcudluğu.
- Məzunların karyera yolları.

### 6.7. İctimai məlumatlılıq

Universitetin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmaq məqsədilə Universitetin internet saytı fəaliyyət göstərir, sosial şəbəkələrdə Universitetin səhifələri yaradılıb. Universitetin rəsmi saytı üç dildə (Azərbaycan, rus, ingilis) fəaliyyət göstərir. Universitetin rəsmi internet saytında və sosial şəbəkələrdə dərc olunan məlumatlar etibarlı, obyektiv və əlçatandır.

***Aşağıdakı məlumat Universitetin rəsmi saytında yerləşdirilib:***

1) əcnəbi tələbələrin bakalavriat və magistratura təhsil proqramlarına qəbul qaydası haqqında;
2) təhsil proqramları haqqında;
3) professor-müəllim heyəti haqqında;
4) universitetin maddi-texniki bazası və tədris-metodiki təminatı haqqında;
5) aparılan tədqiqat işləri haqqında;
6) tələbələrin aditoriyadankənar fəaliyyətlər haqqında;
7) tələbələrin sosial məsuliyyətə təşviq edilməsi haqqında;
8) təlim nəticələrinin qiymətləndirilməsi prosedurları haqqında.

Universitetin veb-saytında tələbələr və müəllim heyətinin nəzərdən keçirməsi məcburi olan daxili normativ sənədlər də var.

### 6.8. Proqramların davamlı monitorinqi və vaxtaşırı nəzərdən keçirilməsi

Təhsil proqramlarının müntəzəm monitorinqi, vaxtaşırı nəzərdən keçirilməsi və yenilənməsi onların səmərəli həyata keçirilməsini təmin etmək və tələbələr üçün əlverişli təlim mühiti yaratmaq məqsədi daşıyır.

**Təhsil proqramlarının qiymətləndirilməsinə daxildir:**



Scanned with CamScanner

- Konkret fənn sahəsi üzrə ən son elmi nailiyyətlərə əsaslanan proqramların məzmunu;
- Cəmiyyətin və əmək bazarının dəyişən ehtiyacları;
- Tələbələrin təhsil proqramlarını mənimsəmə və proqramları başa vurma göstəriciləri;
- Tələbələrin qiymətləndirilməsi prosedurlarının effektivliyi;
- Proqramla bağlı tələbə gözləntiləri, ehtiyacları və məmnuniyyəti;
- Tədris mühiti və dəstək xidmətləri və onların proqram üçün məqsədə uyğunluğu.

Proqramlar tələbələri və digər maraqlı tərəfləri cəlb etməklə müntəzəm olaraq nəzərdən keçirilir və onlara yenidən baxılır. Toplanmış məlumatlar təhlil edilir və proqram aktuallığını təmin etmək üçün uyğunlaşdırılır. Yenidən işlənmiş proqram dərc olunur.

### 6.9. Dövrü olaraq xarici keyfiyyət təminatı.

Universitet dövri olaraq ESG-standartları əsasında xarici keyfiyyət təminatından keçməlidir. Müxtəlif formalarda xarici keyfiyyət təminatı qurumları daxili keyfiyyət təminatının effektivliyini yoxlaya, təkmilləşdirmə üçün katalizator rolunu oynaya və universitetə yeni perspektivlər təklif edə bilər. O, həmçinin ictimaiyyətə Universitetin fəaliyyətinin keyfiyyəti üzrə məlumat verəcəkdir.

Keyfiyyətin təminatı xarici rəy, hesabat və universitet daxilində bu rəy və hesabatların izlənilməsi prosesi ilə bitməyən davamlı bir prosesdir. Buna görə də, Universitet növbəti xarici keyfiyyət təminatı fəaliyyətinə hazırlaşarkən sonuncu xarici keyfiyyət təminatı fəaliyyətindən bəri əldə edilmiş tərəqqinin nəzərə alınmasını təmin edir.

## 7. İMZA VƏ TƏSDİQ

| Ad | Təyinat | İmza | Tarix |
|---|---|---|---|
| Anar Rzayev | Hüquq şöbəsi | [signature] | 07.10.2022 |
| Rəşad Bağırov | İcraçı prorektor | [signature] | 07.10.2022 |



Scanned with CamScanner